# "Qərbi Azərbaycana qayıdış könüllü olacaq"

*Qərbi Azərbaycan İcmasının sədr müavini Ramil Həsənin APA-ya müsahibəsi*

- Ramil müəllim, öncəliklə Qərbi Azərbaycana Qayıdış Konsepsiyanın təsdiq edilməsi münasibətilə sizi təbrik edirəm. Söhbətimizə də elə buradan başlayaq: Qayıdış Konsepsiyası nə vəd edir?

- Bildiyiniz kimi, cənab Prezidentin Qərbi Azərbaycan İcmasının binasının açılış mərasimindəki tarixi nitqindən sonra bir aydan çox müddətdir ki, biz Qayıdış Konsepsiyasının hazırlanması ilə bağlı mütəxəssislərə və Azərbaycan ictimaiyyətinə müraciət edərək və verilən təklifləri dəyərləndirərək ortaq müzakirələr əsasında Qayıdış Konsepsiyasını hazırlamışıq. Təhlükəsiz formada qərbi azərbaycanlıların ata-baba torpaqlarına qayıdışı ilə bağlı bütün prosedurları hüquqi cəhətdən özündə ehtiva edən bu konsepsiya yeddi istiqamətli hədəflərdən ibarətdir. Konsepsiyanın hazırlanmasında əsas məqsədlərdən biri beynəlxalq təhlükəsizliyin təmin edilməsidir. Bilirsiniz, qərbi azərbaycanlılar 1905-1906, 1918-1923, 1948-1953 və nəhayət, 1988-1991-ci illərdə öz yurdlarından qovulublar. Konsepsiya bu proseslər nəticəsində yurd-yuvalarından qovulmuş azərbaycanlıların və onların hüquqi varislərinin geri qayıtmasının təmin edilməsi, onların təhlükəsiz şəkildə yaşayışının təmin edilməsi, eyni zamanda, lazım olan iqtisadi-sosial təminatlarının həyata keçirilməsi, həmçinin Ermənistan hökumətindən tələb etmiş olduğumuz haqlı tələblərimizin yerinə yetirilməsi ilə bağlı beynəlxalq zəmanətin alına bilməsi ilə əlaqədar müddəaları özündə ehtiva edir.

- Qayıdış Konsepsiyası beynəlxalq hüquqdakı hansı qanunları əsas götürür?

- Beynəlxalq Qaçqınlar Konvensiyasında yer alan qaçqınların geri qayıdışına dair müddəalar, Mülki və Siyasi Hüququn Təminatı ilə bağlı Beynəlxalq Pakt, BMT-nin qəbul etmiş olduğu İnsan Hüquqları ilə bağlı Beynəlxalq Konvensiya, eyni zamanda digər bu kimi insan hüquqları və azadlıqları, sərbəst və azad yaşayışın təminatı, həmçinin qaçqınların öz evlərinə qayıdışını təmin edən sənədlər burada əsas götürülüb.

- Ramil müəllim, illər boyu düşmənçilik şəraitində yaşamış iki xalqın - söhbət azərbaycanlılarla ermənilərdən gedir - birgə yaşayışı ilə bağlı müəyyən problemlər çıxa bilər, bu, aydındır. Bununla bağlı nə düşünürsünüz?

- Haqlısınız. Düzü, birinci mərhələdə Ermənistan hökumətinə güvənmirik. Bu baxımdan, prosesin yekunlaşacağı dövrə qədər icma hüquqi varis olduğu üçün qayıdış həyata keçirildiyi müddətdə, həm də qayıdış həyata keçirildikdən sonra belə Ermənistan hökuməti, beynəlxalq təşkilatlar, eyni zamanda bizə qucaq açan Ana Vətənimiz olan Azərbaycan hökuməti və digər strukturlar qarşısında rəsmi, hüquqi zəmanətimizin təmsilçisi olaraq, Qərbi Azərbaycan İcması öz fəaliyyətini davam etdirəcək. Yəni hər hansısa bir problem olacağı təqdirdə, icma rəsmi və hüquqi təmsilçilik missiyasını yerinə yetirəcək.

Biz tarixi ata-baba torpaqlarımızda bilavasitə reinteqrasiyanın, reabilitasiyanın tərkib hissəsi olacağıqsa, həm Ermənistan hökuməti BMT tərəfindən və BMT-yə üzv olan bütün dövlətlər tərəfindən tanınan öhdəlikləri, eyni zamanda milli azlıqlarla bağlı üzərinə götürdüyü öhdəlikləri həyata keçirməsi ilə bağlı məsuliyyət daşımaqdadır. Bu məsuliyyəti dərk edib həyata keçirməsindən ötrü Qərbi Azərbaycan İcması qərbi azərbaycanlıların hüquqlarını və müdafiəsini qoruyan rəsmi bir struktur kimi çalışma planını özünə hədəf seçib.

Azərbaycan.- 2023.- 31 yanvar.- S.12.